**Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Təhsil Nazirliyinin fəaliyyətinin normativ hüquqi əsaslarını təkmilləşdirmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında Əsasnamə təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

3. Bu Fərman dərc olunduğu gündən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 1 mart 2005-ci il
203

Azərbaycan Respublikası Prezidentinin
2005-ci il 1 mart tarixli 203 nömrəli Fərmanı ilə
TƏSDİQ EDİLMİŞDİR

**Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında**

**ƏSASNAMƏ**

## I. ÜMUMİ MÜDDƏALAR

1. Azərbaycan Respublikasının Təhsil Nazirliyi (bundan sonra - Nazirlik) təhsil sahəsində dövlət siyasətini və tənzimlənməsini, təhsil prosesinə ümumi metodiki rəhbərliyi həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır.

2. Nazirlik öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri və bu Əsasnaməni rəhbər tutur.

3. Nazirlik bu Əsasnamədə nəzərdə tutulan vəzifə və funksiyaların yerinə yetirilməsində Azərbaycan Respublikasının mərkəzi və yerli icra hakimiyyəti orqanları, yerli özünüidarəetmə orqanları ilə, habelə beynəlxalq və ictimai təşkilatlarla, digər hüquqi və fiziki şəxslərlə qarşılıqlı fəaliyyət göstərir.

4. Nazirlik müstəqil balansa, qanunvericiliyə uyğun sərəncamında olan dövlət əmlakına, xəzinə və bank hesablarına, Azərbaycan Respublikasının Dövlət gerbinin təsviri və öz adı həkk olunmuş möhürə, müvafiq ştamplara və blanklara malikdir.

5. *Nazirliyin saxlanılması xərcləri və fəaliyyəti Azərbaycan Respublikasının dövlət büdcəsi və qanunla nəzərdə tutulan digər mənbələr hesabına maliyyələşdirilir.*[1]

6. Nazirlik Bakı şəhərində yerləşir.

## II. NAZİRLİYİN ƏSAS VƏZİFƏLƏRİ

7. Nazirliyin əsas vəzifələri aşağıdakılardır:

7.1. Təhsil sahəsində vahid dövlət siyasətinin formalaşmasında iştirak etmək və bu siyasəti həyata keçirmək;

7.2. Azərbaycan Respublikasında təhsil sisteminin müəyyən edilmiş istiqamətlər üzrə inkişafını təmin etmək;

7.3. təhsil sahəsində dövlət tənzimlənməsini həyata keçirmək, təhsilin keyfiyyətinə dövlət nəzarətini təmin etmək;

7.4. vətəndaşların təhsil almaları ilə bağlı konstitusiya hüquqlarını qorumaq məqsədilə təhsildə bərabər imkanların yaradılmasına nail olmaq;

7.5. mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq bütün təhsil müəssisələrinə elmi, tədris-metodiki rəhbərliyi həyata keçirmək;

7.5-1. öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, internet saytının yaradılmasını, malik olduğu və siyahısı qanunvericiliklə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin saytda yerləşdirilməsini və bu informasiyanın daimi yeniləşdirilməsini təmin etmək; [2]

7.6. Azərbaycan Respublikasının qanunvericiliyi ilə Nazirliyə həvalə olunmuş digər vəzifələri yerinə yetirmək.

## III. NAZİRLİYİN FUNKSİYALARI

8. Nazirlik bu Əsasnamə ilə müəyyən edilmiş vəzifələrə uyğun olaraq aşağıdakı funksiyaları həyata keçirir:

8.1. təhsil sisteminin fəaliyyətini və onun inkişafını təmin edən normativ hüquqi bazanın yaradılmasında iştirak edir və müvafiq sahə standartları hazırlayır;

8.2. ~~milli~~ təhsil sisteminin inkişafı üçün müxtəlif istiqamətli dövlət proqramlarının icrasına nəzarəti həyata keçirir; [3]

8.2-1. təhsil sahəsində dövlətlərarası, regional və beynəlxalq inkişaf proqramlarının həyata keçirilməsini təmin edir;

8.2-2. təhsili idarəetmə orqanlarının, təhsil müəssisələrinin, təhsillə bağlı qeyri-hökumət təşkilatlarının fəaliyyətinin əlaqələndirilməsini təşkil edir; [4]

8.3. təhsil prosesinin təşkilinə dair ümumi tələbləri müəyyən edir;
8.4. təhsilin müvafiq dövlət standartlarına uyğun təşkilinə nəzarəti həyata keçirir;
8.5. təhsil sahəsində planlaşdırma, proqnozlaşdırma, əlaqələndirmə, təminat, təchizat və qiymətləndirməni (ümumi təhsili həyata keçirən təhsil müəssisələrində ümumtəhsil fənləri üzrə təhsilalanların biliyinin yekun *attestasiyası* istisna olmaqla) təmin edir; [5]
8.6. təhsil sahəsində dövlət siyasətinin və dövlət proqramlarının həyata keçirilməsinin monitorinqini aparır; [6]
8.7. qanunvericiliyə uyğun olaraq təhsil sistemində demokratik idarəetmənin tətbiqini təmin edir;
*8.8. təhsil müəssisələrinin akkreditasiyasının həyata keçirilməsini və onlara akkreditasiya şəhadətnaməsinin verilməsini təmin edir;*[7]
8.8-1. akkreditasiya olunmuş təhsil müəssisəsində təhsilin dövlət təhsil standartlarına uyğun təşkil olunmaması nəticəsində təhsilalanların keyfiyyətsiz hazırlığı müəyyən edildiyi halda vurulmuş zərərin, o cümlədən təhsilalanların başqa təhsil müəssisələrində yenidən hazırlanması üçün zəruri olan xərclərin həmin təhsil müəssisəsi tərəfindən ödənilməsi barədə məhkəmədə iddia qaldırır; [8]
8.9. təhsilin keyfiyyətini yüksəltmək və tədrisin təşkilində mütərəqqi forma və metodların tətbiqi məqsədilə eksperimentlər aparır;
8.10. təhsil müəssisələri üçün dərsliklərin, dərs vəsaitlərinin və digər *tədris-metodik vəsaitlərin* hazırlanmasını, təsdiqlənməsini və nəşrini təmin edir;[9]
*8.10-1. təhsil proqramlarını (kurikulumları), tədris planlarını və proqramlarını təsdiq edir;*[10]
8.11. *məktəbyaşlı uşaqların icbari ümumi orta təhsilə cəlbini təmin edir və* icbari ümumi orta təhsilin həyata keçirilməsinə nəzarət edir;[11]
*8.11-1. tabeliyində olan dövlət ümumi təhsil müəssisələrində təhsilalanların peşəyönümü işini təşkil edir;*[12]
8.12. xüsusi istedada malik uşaq, şagird və tələbələrin təhsillərini davam etdirmək üçün lazımi tədbirlər görür;
8.13. təhsil müəssisələrində təhsilin keyfiyyətinə dövlət nəzarətini həyata keçirir; [13]
8.13-1. uşaq hüquqlarının təmin edilməsi vəziyyətinə dair monitorinqlər aparılmasında iştirak edir; [14]
8.13-2. Nazirliyin qanun əsasında müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq, uşaq hüquqlarının təmin edilməsi vəziyyətinə dair illik hesabat hazırlayır;
8.14. müxtəlif səviyyəli və miqyaslı fənn olimpiadaları təşkil edir;
8.15. yerli icra hakimiyyəti orqanlarının tabeliyində olan məktəbəqədər təhsil müəssisələri istisna olmaqla, digər dövlət təhsil müəssisələrinin tədris, elmi, elmi-metodik, informasiya-kommunikasiya texnologiyaları, *rəqəmsal tədris resursları* və digər texniki vasitələrlə təminatını həyata keçirir;[15]
8.16. açıq və qapalı tipli xüsusi təlim-tərbiyə müəssisələri, təhsil müəssisələri, uşaq evləri , *ümumtəhsil internat məktəbləri və inteqrasiya təlimli internat tipli təhsil müəssisələri* şəbəkəsinin yaradılması, habelə inkişafında və ya davranışında qüsur olan yetkinlik yaşına çatmayanlara pedaqoji və digər yardım göstərən müəssisələrin inkişafı üçün tədbirlər görür, aidiyyəti icra hakimiyyəti orqanlarının iştirakı ilə ciddi tərbiyə şəraitinə ehtiyacı olan, sağlamlıq imkanları məhdud" (xüsusi qayğıya ehtiyacı olan) uşaq və yeniyetmələrin təhsilini təşkil edir, inkişafında qüsurlar olan yetkinlik yaşına çatmayanları aşkar edən psixoloji-tibbi-pedaqoji komissiyalar yaradır, habelə Azərbaycan Respublikasının qanunvericiliyi ilə yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası sahəsində təhsil orqanlarına həvalə edilən digər məsələləri həll edir; [16]
8.17. qəyyumluq və himayə orqanlarına metodiki kömək göstərir, valideyn himayəsindən məhrum uşaqların müəyyənləşdirilməsini və onların təhsilə cəlb edilməsini təşkil edir;.
8.17-1. məktəbəqədər yaşlı uşaqları evdə tərbiyə edən ailələr üçün müvafiq *maarifləndirmə tədbirləri həyata keçirir*; [17]
8.17-2. vətəndaşların və təhsil müəssisəsi təsisçilərinin istəyi nəzərə alınaraq, qanunvericiliyə uyğun olaraq *təhsil müəssisələrində* müvafiq dövlət təhsil standartları əsasında tədrisin digər dillərdə aparılmasına razılıq verir; [18]
8.18. müvafiq icra hakimiyyəti orqanları ilə birlikdə təhsil müəssisələrində idman-sağlamlıq və profilaktik işlərin təşkili ilə bağlı lazımi tədbirlər görür, uşaq, şagird və tələbələrin idman yarışlarını, turist yürüşlərini, özfəaliyyətlərinə, texniki və bədii yaradıcılıqlarına baxışları və bu kimi digər tədbirləri həyata keçirir;
8.18-1. öz səlahiyyətləri daxilində təhsil müəssisəsində bədən tərbiyəsi və idmanın təbliği forma və metodlarını müəyyən edir, qanunvericiliyə uyğun olaraq müxtəlif idman növləri üzrə proqram və normativləri təsdiq edir;[19]
8.18-2. bədən tərbiyəsi dərslərinin və idman məşğələlərinin yüksək səviyyədə keçirilməsini, tədris planlarına və təhsil standartlarına uyğun olaraq çağırışaqədər yaşlı gənclərin və çağırışçıların hərbi xidmətə zəruri fiziki hazırlığını təmin edir, təhsil alanların üzməyi öyrənməsi, müəyyən edilmiş idman normativlərini yerinə yetirə bilməsi üçün şərait yaradır;
8.19. müvafiq icra hakimiyyəti orqanları ilə birgə təhsil müəssisələrində təhsil alanların, pedaqoji və texniki-yardımçı heyət işçilərinin tibbi müayinədən keçirilməsini təmin edir; [20]
8.20. təhsil müəssisələrində aparılan elmi araşdırmaları *Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə* əlaqələndirir;[21]
8.21. elmi-texniki konfransların, simpoziumların və müsabiqələrin keçirilməsini, şagirdlərin, tələbə, doktorant və müəllimlərin xarici ölkələrdə keçirilən bu kimi tədbirlərdə iştirakını təşkil edir;[22]
8.22. ali, orta ixtisas və *peşə* təhsili üzrə ixtisasların təsnifatı barədə təklif verir; [23]
*8.22-1. tabeliyində ali təhsil müəssisələri olan icra hakimiyyəti orqanlarının və özəl ali təhsil müəssisələrinin*

*təklifləri əsasında bakalavriat səviyyəsində hazırlıq qrupları təşkil olunan ali təhsil müəssisələrini və ixtisasları müəyyən edir;*[24]

8.23. bələdiyyə və özəl təhsil müəssisələrinin nizamnamələrinə rəy verir;

*8.23-1. özəl və bələdiyyə ümumi təhsil müəssisələrinin fəaliyyətini təşviq edir və dəstəkləyir, onlara metodik kömək göstərir;*[25]

8.24. yerli icra hakimiyyəti orqanlarının tabeliyində olan məktəbəqədər təhsil müəssisələri istisna olmaqla, digər dövlət təhsil müəssisələrində elmi və pedaqoji şuraların yaradılması və fəaliyyəti ilə bağlı əsasnamələri təsdiq edir;[26]

8.25. müxtəlif səbəblərə görə pedaqoji fəaliyyət göstərməsi qadağan olunan şəxslərin kateqoriyası, sağlamlıq imkanlarına görə məhdudiyyət qoyulan, eləcə də eksternat yolu ilə mütəxəssis hazırlığı qadağan edilən ixtisasların siyahısı barədə təkliflər verir;

*8.26. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, mülkiyyət formasından və tabeliyindən asılı olmayaraq təhsil müəssisələri tərəfindən məzunlara verilən təhsil haqqında dövlət sənədinin "Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi"ndən elektron sənəd formasında əldə edilməsini təmin edir;*[27]

8.27. *xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyalarının tanınmasını* həyata keçirir;[28]

*8.28. xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyalarının tanınmasına dair sənədlər verir;* [29]

8.29. təhsil alanlar üçün adlı təqaüdlərin təsis edilməsi barədə Azərbaycan Respublikasının Nazirlər Kabineti qarşısında vəsatət qaldırır;

8.30. mütəxəssis-kadrlara, o cümlədən pedaqoji kadrlara olan real tələbatı müəyyənləşdirir və onların iş yerləri ilə təmin olunmasını tənzimləyir;[30]

8.31. ali, orta ixtisas və *peşə* təhsili müəssisələrinə illik tələbə ~~və şagird~~ qəbulu barədə təklif hazırlayır;[31]

8.32. müvafiq təhsil müəssisələrində magistratura və doktoranturaların açılması məsələsini həll edir;

8.33. pedaqoji kadrların və təhsil işçilərinin hazırlanması və əlavə təhsili işini təşkil edir;[32]

*8.33-1. dövlət ümumi təhsil müəssisələri müəllimlərinin bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsini həyata keçirir;*[33]

8.34. müasir təhsil texnologiyalarından istifadə etməklə müxtəlif təhsilalma formalarının tətbiq edilməsinə və inkişafına şərait yaradır;[34]

8.35. aidiyyəti icra hakimiyyəti orqanları, müəssisə və təşkilatlarla birlikdə əhalinin işləməyən təbəqəsinin peşə hazırlığını, o cümlədən əlavə təhsilini təmin edir;[35]

*8.35-1. peşə təhsili müəssisələrini idarə etmək və fəaliyyətini əlaqələndirmək məqsədilə məlumat bazası yaradır, onun digər təhsil pillələri və səviyyələrinin məlumat infrastrukturuna inteqrasiyasını təmin edir;*[36]

*8.35-2. insan kapitalını inkişaf etdirmək, məşğulluğu təmin etmək və keyfiyyətli əmək bazarı formalaşdırmaq məqsədilə ixtisaslı işçi qüvvəsinin hazırlanması sahəsində mövcud problemləri araşdırır, bu istiqamətdə analitik və metodik materiallar hazırlayır;*

*8.35-3. yaşlılar üçün (məcburi dövlət sosial sığortasına cəlb olunmayan şəxslərə münasibətdə) peşə təlimini və ixtisasartırmanı təmin edir;*

*8.35-4. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə razılaşdırmaqla, sosial müdafiəyə xüsusi ehtiyacı olan şəxslərin peşə təhsili almaq hüququnu təmin edir;*

8.36. ümumi təhsil müəssisələrində təhsilverənlərin ~~və təhsilalanların~~ attestasiyasını *(dövlət ümumi təhsil müəssisələrində (ümumi təhsil üzrə təhsilverənlərə münasibətdə digər dövlət təhsil müəssisələrində) – sertifikatlaşdırılmasını)* həyata keçirir;[37]

8.37. dövlət ali təhsil müəssisələri, ~~Nazirliyin tabeliyindəki~~ *peşə təhsili müəssisələri, Nazirliyin tabeliyində olmayan təhsil müəssisələri* və yerli icra hakimiyyəti orqanlarının tabeliyində olan məktəbəqədər təhsil müəssisələri istisna olmaqla, digər dövlət təhsil müəssisələrinin rəhbərlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi məsələsini həll edir, *Nazirliyin tabeliyindəki peşə təhsili müəssisələrinin rəhbərlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsinə razılıq verir;*[38]

8.38. təsisçisi (təsisçiləri) əcnəbilər, vətəndaşlığı olmayan şəxslər və ya xarici hüquqi şəxslər olan, o cümlədən nizamnamə kapitalının və ya səhmlərinin 51%-dən çoxu əcnəbilərə, vətəndaşlığı olmayan şəxslərə və ya xarici hüquqi şəxslərə məxsus təhsil müəssisəsinin rəhbərinin və onun müavininin namizədliyinə razılıq verir; [39]

8.39. pedaqoji kadrlara olan tələbatın ödənilməsi üçün tədbirlər görür, gənc mütəxəssislərin iş yerlərilə təminatı prosesinə əməli köməklik göstərir, onların sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində müvafiq icra hakimiyyəti orqanları ilə birlikdə lazımi işlər aparır;

8.40. təhsil müəssisələrinin tədris-maddi bazasını inkişaf etdirir, onların tikintisinə, maddi-texniki təchizatına dair vahid normaları, şagird yerləri ilə təminat normativlərini müəyyənləşdirir;

8.41. qanunvericiliyə uyğun olaraq tabeliyində olan dövlət təhsil müəssisələrinin maliyyələşdirilməsini həyata keçirir; [40]

8.41-1. azkomplektli dövlət ümumi təhsil müəssisələrinin mövcud normativlərdən üstün maliyyələşdirilməsi məsələsini həll edir; [41]

8.42. təhsil sistemində "attestasiya-maddi stimullaşdırma" mexanizminin tətbiqilə əlaqədar təkliflər hazırlayır;

8.43. təhsil işçilərinin həvəsləndirilməsi və mükafatlandırılması tədbirlərini həyata keçirir, onlara mövcud qanunvericilik çərçivəsində "Əmək veteranı" adının verilməsini təmin edir;

8.44. təhsil sahəsində Azərbaycan Respublikasının qoşulduğu beynəlxalq müqavilələr üzrə öhdəliklərin yerinə

yetirilməsi üçün tədbirlər görür;

8.45. təhsil sahəsində beynəlxalq təşkilatlarla əməkdaşlığı həyata keçirir;

8.46. xarici ölkələrdə yaşayan azərbaycanlıların öz ana dilində ümumi təhsil almalarına, habelə Azərbaycan dili və ədəbiyyatının, Azərbaycan tarixi və coğrafiyasının öyrənilməsinə yardım göstərir;

8.47. Azərbaycan Respublikası vətəndaşlarının mövcud qaydalara uyğun dövlət xətti ilə xaricdə təhsil almaları və elmi tədqiqat işləri aparmaları üçün tədbirlər görür;

8.48. təsdiq olunmuş formada statistik məlumatların və hesabatların toplanılmasını, onların təhlilini və nəticələrin müvafiq orqanlara təqdim edilməsini həyata keçirir;

8.49. öz səlahiyyətləri daxilində penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası üzrə tədbirləri həyata keçirir;

8.50. qanunvericiliklə nəzərdə tutulmuş digər funksiyaları həyata keçirir. [42]

## IV. NAZİRLİYİN HÜQUQLARI

9. Nazirlik öz vəzifələrini və funksiyalarını həyata keçirmək üçün aşağıdakı hüquqlara malikdir:

9.1. mərkəzi və yerli icra hakimiyyəti orqanlarından, bələdiyyələrdən, fiziki və hüquqi şəxslərdən müəyyən olunmuş qaydada təhsilin inkişafı ilə bağlı zəruri məlumatlar və arayışlar tələb etmək;

9.2. təhsil sisteminin fəaliyyətini tənzimləyən normativ hüquqi aktlar qəbul etmək, onları dəyişdirmək və ləğv etmək;[43]

9.3. səlahiyyətləri daxilində təhsil müəssisələri tərəfindən icrası məcburi olan göstərişlər, əmr və sərəncamlar vermək, onların icrasına nəzarət etmək;

~~9.4. mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq Azərbaycan Respublikasında fəaliyyət göstərən təlim-tərbiyə müəssisələrində monitorinqlər keçirmək, tədrisin keyfiyyətinə dövlət nəzarətini təşkil etmək;~~[44]

*9.5. “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq təhsil fəaliyyəti üçün verilmiş lisenziyanın tələblərinə və şərtlərinə riayət olunmasına nəzarət etmək;*[45]

9.6. mövcud qanunvericiliyin tələblərinə uyğun olaraq tenderlər keçirmək, texniki şərtləri müəyyənləşdirmək, onların icrasına nəzarəti təmin etmək;

9.7. qanunvericilikdə nəzərdə tutulmuş qaydada təhsil məsələləri ilə bağlı beynəlxalq və dövlətlərarası münasibətlərdə Azərbaycan Respublikasını təmsil etmək, qarşılıqlı əməkdaşlıq haqqında müqavilələr (sazişlər, memorandumlar, bəyannamələr və s.) imzalamaq;

9.8. qanunvericiliklə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

## V. NAZİRLİYİN FƏALİYYƏTİNİN TƏŞKİLİ

10. Nazirliyin fəaliyyətinə Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin olunan və vəzifədən azad edilən nazir rəhbərlik edir.

11. Təhsil naziri Nazirliyə həvalə edilmiş vəzifələrin yerinə yetirilməsi və funksiyaların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır.

11-1. Nazirliyin strukturu Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilir. Nazirliyin strukturuna daxil olmayan tabeliyindəki qurumların (hüquqi şəxslərin, təşkilatların və sair) siyahısını Azərbaycan Respublikasının Nazirlər Kabineti təsdiq edir. [46]

12. Təhsil nazirinin Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin edilən və vəzifədən azad olunan üç müavini vardır. Nazir müavinləri onların arasında nazir tərəfindən aparılmış vəzifə bölgüsünə uyğun olaraq fəaliyyət göstərirlər və onlara həvalə edilmiş vəzifələrin yerinə yetirilməsi üçün şəxsən məsuliyyət daşıyırlar.

13. Təhsil naziri:

13.1.Nazirliyin fəaliyyətini təşkil edir və ona ümumi rəhbərliyi həyata keçirir;

13.2.nazir müavinləri arasında vəzifə bölgüsü aparır;

13.3.müəyyən edilmiş əməyin ödənilməsi fondu və işçilərin say həddi daxilində Nazirliyin ~~mərkəzi~~ aparatının, habelə birbaşa tabeliyində olan büdcədən maliyyələşən qurumların strukturunu təsdiq edir;

13.4.Nazirliyin ~~mərkəzi~~ aparatının işçilərini və təsdiq olunmuş nomenklatur çərçivəsində kadrları vəzifəyə təyin edir və vəzifədən azad edir, onlarla əmək müqavilələri bağlayır, müqavilələri ləğv edir, işçilər barəsində qanunvericiliklə müəyyən olunmuş qaydada mükafatlandırma, həvəsləndirmə və intizam tənbehi tədbirləri görür;

*13.4-1. Nazirliyə aid edilmiş məsələlər üzrə müvafiq il üçün dövlət büdcəsinin və büdcədənkənar fondların formalaşdırılması ilə bağlı təkliflər verir;*[47]

*13.4-2. dövlət büdcəsindən ayrılan vəsaitin, büdcədənkənar xüsusi vəsaitin sərəncamçısı olmaqla, maliyyə vəsaitini bölüşdürür, ayrılmış vəsaitin həddi nəzərə alınmaqla, işçilərin vəzifə maaşlarına əlavələrin, maddi yardım və mükafatların verilməsini təmin edir;*

13.5. səlahiyyətləri daxilində Nazirliyin ~~mərkəzi~~ aparatının, habelə tabeliyində olan qurumların fəaliyyətinə dair icrası məcburi olan əmrlər, sərəncamlar, göstərişlər verir, normativ hüquqi aktları təsdiq edir (imzalayır), onların icrasını təşkil edir və nəzarəti həyata keçirir;

13.6. bilavasitə tabeliyində olan təhsil müəssisələrinin, idarə və təşkilatların nizamnamələrini (əsasnamələrini), eləcə də Nazirliyin aparatının struktur bölmələrinin əsasnamə və iş planlarını təsdiq edir; [48]

13.7. təhsilin ayrı-ayrı sahələrinin inkişaf etdirilməsi, monitorinqlərin aparılması, strateji fəaliyyət proqramlarının hazırlanması məqsədilə mütəxəssislərdən ibarət işçi qrupları, eləcə də koordinasiya və idarəetmə şuraları yaradır;

13.8. qanunvericiliklə müəyyən edilmiş qaydada xarici ölkələrin dövlət orqanları, qeyri-hökumət təşkilatları və hüquqi şəxslərlə, beynəlxalq təşkilatlarla danışıqlar aparır;

13.9. Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq digər səlahiyyətləri həyata keçirir.

14.Nazirlikdə nazirdən (kollegiyanın sədri), nazir müavinlərindən, Naxçıvan Muxtar Respublikasının təhsil nazirindən, Nazirliyin ~~mərkəzi~~ aparatının, tabeliyində olan qurumların rəhbər işçilərindən və alimlərdən ibarət kollegiya yaradılır.[49]

15.Nazirliyin kollegiyasının sayı və şəxsi tərkibi Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq olunur.

16.Nazirliyin kollegiyası öz iclaslarında təhsillə bağlı aktual məsələləri müzakirə edir və onlar haqqında müvafiq qərarlar qəbul edir.

17.Nazirliyin kollegiyasının iclasları kollegiya üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir.

18.Kollegiya qərarları onun üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir, protokollarla rəsmiləşdirilir və bir qayda olaraq nazirin müvafiq əmrləri və sərəncamları ilə həyata keçirilir.

19. Zəruri hallarda kollegiya iclaslarına iştirak etmək üçün digər icra hakimiyyəti orqanlarının, idarə, müəssisə və təşkilatların ~~rəhbərləri~~, habelə ictimai təşkilatların nümayəndələri də dəvət edilə bilərlər.[50]

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI


1. 16 dekabr 2005-ci il tarixli Fərman (“**Azərbaycan” qəzeti, 17 dekabr 2005-ci il** )
2. 26 oktyabr 2007-ci il tarixli 642 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 10, maddə 947**)
3. 11 noyabr 2008-ci il tarixli 14 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı ( **“Azərbaycan” qəzeti 21 noyabr 2008-ci il, 261, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 11, maddə 970**)
4. 21 dekabr 2009-cu il tarixli **195** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı **(“Azərbaycan” qəzeti 27 dekabr 2009-cu il, 289)**
5. 10 fevral 2010-cu il tarixli **219** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Azərbaycan” qəzeti 12 fevral 2010-cu il, 33, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 2, maddə 83**)
6. 15 fevral 2011-ci il tarixli **381** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Respublika” qəzeti, 18 fevral 2011-ci il, 38, “Azərbaycan” qəzeti, 20 fevral 2011-ci il, 40, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, 02, maddə 85)**
7. 19 aprel 2012-ci il tarixli **612** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Azərbaycan” qəzeti, 20 aprel 2012-ci il, 85, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, 04, maddə 291)**
8. 1 iyun 2012-ci il tarixli **637** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Azərbaycan” qəzeti, 2 iyun 2012-ci il, 120, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, 06, maddə 531)**
9. 4 sentyabr 2012-ci il tarixli **702** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Respublika” qəzeti, 6 sentyabr 2012-ci il, 198, “Azərbaycan” qəzeti 8 sentyabr 2012-ci il, 200, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, 09, maddə 854)**
10. 7 noyabr 2016-cı il tarixli **1098** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Xalq” qəzeti, 16 noyabr 2016-cı il, 253 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 11, maddə 1805)**
11. 21 iyul 2017-ci il tarixli **1545** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Xalq” qəzeti, 23 iyul 2017-ci il, 157 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 7 , maddə 1355)**
12. 19 dekabr 2017-ci il tarixli **1744** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Xalq” qəzeti, 20 dekabr 2017-ci il, 281 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 12, I kitab, maddə 2312)**
13. 1 mart 2019-cu il tarixli **562** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Xalq” qəzeti, 2 mart 2019-cu il, 50 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 3, maddə 403)**
14. 16 may 2019-cu il tarixli **696** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Xalq” qəzeti, 18 may 2019-cu il, 108, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 5, maddə 848)**
15. 29 noyabr 2019-cu il tarixli **870** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Azərbaycan” qəzeti, 1 dekabr 2019-cu il, 267 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 11, maddə 1718 )**
16. 7 iyul 2020-ci il tarixli **1088** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Azərbaycan” qəzeti, 9 iyul 2020-ci il, 131 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 7, maddə 868)**
17. 30 iyul 2020-ci il tarixli **1115** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Xalq” qəzeti, 31 iyul 2020-ci il, 150, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 7, maddə 895)**
18. 4 sentyabr 2020-ci il tarixli **1149** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Xalq” qəzeti, 5 sentyabr 2020-ci il, 178, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 9, maddə 1139)**
19. 8 dekabr 2020-ci il tarixli **1207** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Xalq” qəzeti, 13 dekabr 2020-ci il, 262)**
20. 5 fevral 2021-ci il tarixli **1282** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Azərbaycan” qəzeti, 7 fevral 2021-ci il, 28)**


## FƏRMANA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

-

---

[1] 4 sentyabr 2020-ci il tarixli **1149** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Xalq” qəzeti, 5 sentyabr 2020-ci il, 178, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 9, maddə 1139)** ilə “Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında Əsasnamə”nin 5-ci hissəsi yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~5. Nazirliyin saxlanması xərcləri Azərbaycan Respublikasının dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilir.~~

-

[2] 21 dekabr 2009-cu il tarixli **195** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 27 dekabr 2009-cu il, 289**) ilə «Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında Əsasnamə»yə 7.5-1-ci bənd əlavə edilmişdir.

[3] 15 fevral 2011-ci il tarixli **381** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Respublika" qəzeti, 18 fevral 2011-ci il, 38, "Azərbaycan" qəzeti, 20 fevral 2011-ci il, 40**) ilə 8.2-ci bənd yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~8.2. təhsilin inkişafı ilə bağlı proqramların hazırlanıb həyata keçirilməsini təmin edir, bu sahədə digər orqanların fəaliyyətini əlaqələndirir;~~

-

5 fevral 2021-ci il tarixli **1282** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 7 fevral 2021-ci il, 28**) ilə "Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında Əsasnamə"nin 8.2-ci bənddən "**milli**" sözü çıxarılmışdır.

-

[4] 15 fevral 2011-ci il tarixli **381** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Respublika" qəzeti, 18 fevral 2011-ci il, 38, "Azərbaycan" qəzeti, 20 fevral 2011-ci il, 40, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, 02, maddə 85**) ilə yeni məzmunda 8.2-1-ci və 8.2-2-ci bəndlər əlavə edilmişdir.

-

[5] 19 aprel 2012-ci il tarixli **612** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 20 aprel 2012-ci il, 85, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, 04, maddə 291**) ilə "Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında Əsasnamə"nin 8.5-ci yarımbənddə "**qiymətləndirməni**" sözündən sonra "(**ümumi təhsili həyata keçirən təhsil müəssisələrində ümumtəhsil fənləri üzrə təhsilalanların biliyinin yekun qiymətləndirilməsi (attestasiyası) istisna olmaqla**)" sözləri əlavə edilmişdir.

5 fevral 2021-ci il tarixli **1282** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 7 fevral 2021-ci il, 28**) ilə "Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında Əsasnamə"nin8.5-ci bəndində "**qiymətləndirilməsi** (**attestasiyası**) sözləri "**attestasiyası**" sözü ilə əvəz edilmişdir.

-

[6] 15 fevral 2011-ci il tarixli **381** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Respublika" qəzeti, 18 fevral 2011-ci il, 38, "Azərbaycan" qəzeti, 20 fevral 2011-ci il, 40, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, 02, maddə 85**) ilə 8.3-8.6-cı bəndlər yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~8.1. təhsil müəssisələrinin şəbəkəsini və onların inkişaf perspektivlərini müəyyənləşdirir;~~

~~8.2. təlim və tədris prosesinin keyfiyyətinə, təhsil qanunvericiliyinin icrasına, təhsilin dövlət standartlarına riayət olunmasına nəzarət edir;~~

~~8.3. təhsil sisteminin inkişafı sahəsində analitik təhlillər aparır və monitorinqlər keçirir;~~

~~8.4. təhsil sistemində biliyin qiymətləndirilməsi meyarlarını, qiymətləndirmənin bal sistemini müəyyənləşdirir;~~

-

[7] 15 fevral 2011-ci il tarixli **381** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Respublika" qəzeti, 18 fevral 2011-ci il, 38, "Azərbaycan" qəzeti, 20 fevral 2011-ci il, 40**) ilə 8.8-ci bənd yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~8.8. mülkiyyət formasından və tabeliyindən asılı olmayaraq müəyyən olunmuş qaydalar əsasında təhsil müəssisələrinin attestasiyasını və akkreditasiyasını aparır;~~

7 iyul 2020-ci il tarixli **1088** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 9 iyul 2020-ci il, 131 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 7, maddə 868**) ilə "Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında Əsasnamə"nin 8.8-ci bənd yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~8.8. təhsil müəssisələrinin akkreditasiyasını həyata keçirmək məqsədi ilə qanunvericiliklə müəyyən edilmiş qaydada akkreditasiya xidmətini yaradır;~~

